# HÜSEYN ƏFƏNDİ QAYIBOV: BÖYÜK MAARİFÇİ, ƏDƏBİYYATŞÜNAS VƏ İCTİMAİ XADİM



***Mahmud ALLAHMANLI,***
***filologiya elmləri doktoru,***
***professor***

*"Bu mənlik və qürur bataqlığının təmizlənməsi üçün bir mürşidi-kamilin hümmət və feyzi zəruridir"*

**Cəlaləddin Rumi**

On doqquz və iyirminci yüzillik Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin ən parlaq simalarından biri Hüseyn əfəndi Qayıbovdur. Elmi-nəzəri fikir onu daha çox "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı möhtəşəm abidə (toplu) ilə diqqət önünə gətirir. Ancaq onun gördüyü böyük işlər və bütünlükdə fəaliyyət dairəsi on doqquzuncu əsrin yeniləşən mənzərəsində bir mücahid kimi nümunəyə çevrildiyini aydınlaşdırır. A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, S.Ünsizadə, S.Ə.Şirvani, C.Ünsizadə, A.O.Çernyayevski, R.Əfəndiyev, S.Vəlibəyov, S.M.Qənizadə, F.Köçərli və s. ziyalılar nəslinin gördüyü gərəkli işlər sırasında bir əvəzsizliyi sərgiləmək gücü və intəhası ilə diqqət önünə gəlir. Bu böyük şəxsiyyətlər zamanında gördüyü gərəkli, həm də savab işlərilə nümunəyə çevrilmiş və gediləcək yolun konseptini hazırlamışlar. Sonrakı dövr ədəbi-nəzəri fikrin araşdırıcıları onlar haqqında müxtəlif kontekstdə təhlillər aparmış, gərəkli işlərini tədqiqat probleminə çevirmişlər. Və indi də bu proses fərqli aspektləri, yanaşmaları ilə davam etməklə bir dönməzliyi sərgiləyir.

Qarşımda bir kitab var və bu görkəmli maarifçi, elmi-pedaqoji fikrin parlaq nümayəndələrindən olan Hüseyn əfəni Qayıbovun həyat və fəaliyyətinin çoxyönlü tərəflərini araşdırmağa həsr olunmuşdur. Müəllifi filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti Cəlilabad filialının Dil-ədəbiyyat və pedaqoji elmlər, onların tədrisi texnologiyası kafedrasının müdiri Yədulla Dadaşlıdır. İllərin uzun müddətli, həm də sistemli araşdırmalarının nəticəsi olaraq ərsəyə gələn bu kitab geniş aspektə bütünlükdə on doqquzuncu yüzilik boyu gedən proseslərə aydınlıq gətirmək və tipoloji araşdırmalar aparmaq üçün əsaslı mənbədir. Çoxyönlü və çeşidli istiqamətləri özündə ehtiva edən "Hüseyn əfəndi Qayibov: həyat və fəaliyyəti" (Bakı: Elm və təhsil, 2024, 336 s.) monoqrafiyası görkəmli ədəbiyyatşünas, pedaqoq, maarifçi ictimai xadim timsalında ədəbi-mədəni prosesin dinamikasını, məktəb tarixini, Tiflis mühitini, onun qaynar aurasını, siyasi proseslərin ümumi axarında hadisələrin gedişini aydınlaşdırmaq baxımından son dərəcədə əsaslı faktura ilə səciyyələnir.

H.Ə.Qayıbovun həyat və yaradıcılığı, gördüyü gərəkli işlər, fəaliyyət sferasının ensiklopedik mənzərəsi haqqında S.Ə.Şirvanidən Ş.Nəzirliyə qədər olan araşdırmaları, təhlil və mülahizələri imkanlarım daxilində izləməyə çalışmışam. Məqalə və kitablarımda məsələnin mahiyyəti və on doqquzuncu yüzilliyin ümumi dinamik mənzərəsi timsalında qənaətlərimi bölüşmək istəyində olmuşam. Daha doğrusu, digər ədiblər, ədəbi proses timsalında tipoloji yanaşmalar baxımından mahiyyətin aydınlaşmasına həssaslıq göstərmişəm. Tarixi axarın ümumi mənzərəsi fonunda özünü göstərən zənginləşmə bu dövrü (on doqquzuncu yüzilliyi) həm də yeni mərhələ kimi nəzərdən keçirməyi aktuallaşdırır. Y.Dadaşlının isə bu tədqiqatı onsuz da diqqətimdə olan bu prosesə təkrarən münasibət bildirməyi əsasa çevirdi. Fakt və qaynaq zənginliyi ilə diqqət önünə gələn "Hüseyn əfəndi Qayıbov: həyatı və fəaliyyəti" monoqrafiyası ilk öncə son dövr ədəbi-nəzəri fikrin uğurları timsalında örnəyə çevrilir.

Kitaba əməkdar müəllim, tənqidçi, professor T.Salamoğlu "Hüseyn əfəndi Qayıbov: fəaliyyətin sferası, əks qütblərin harmoniyası" adlı giriş sözü yazmışdır. Orada bir tezis xüsusi olaraq qabardılır və deyilir ki, "Y.Dadaşlı H.-Qayıbovu ancaq dini missiya yerinə yetirən bir insan kimi xarakterizə etmir. H.Qayıbov ömrünün altmış ilini doğma xalqının ictimai-mədəni tərəqqisi yolunda keçirən bir insan kimi dəyərləndirilir, onun maarifçi ziyalı missiyası öyrənilir. Deməк lazımdır ki, din xadiminə verilən bu rol ədəbiyyatşünaslığımız üçün tam yenidir və yaxud belə demək olar ki, uzun illər onun əlindən alınmış haqqının bərpasıdır". Tənqidçi alimin dedikləri hər iki kontekstdə doğrudur və reallığa bağlanır. Sovet ideoloji sisteminin yeritdiyi konsepsiya bütün səviyyələrdə xalqlara basqı və mənəvi düşüncədə oturuşmuş təsəvvürlərə dağıdıcı mövqe nümayiş etdirməklə diqqət önünə gəlir. İllah da türk xalqlarına yanaşmada bu daha qabarıq şəkildə boy göstərir. Y.Dadaşlının konseptual yanaşması və həm də nəzəri baxışları heç bir ideolojiyə dayanmadan sırf ədəbiyyatşünaslıq mövqeyini nümayiş etdirməklə spesifikləşir.

Azərbaycanın müstəqillik məfkurəsi keçən əsrin səksəninci illərindən zədələnmiş davranış və düşüncə sistemini bərpaya, "əks qütblər" səviyyəsində müşahidə olunan "harmoniyanı" yerinə qoymağa sədaqət nümayiş etdirmək yolunu tutdu və insafən də buna müsbət mənada nail oldu. H.Ə.Qayıbov timsalında təhlilə gətirdiyimiz mönoqrafiya bunun göstəricisidir. Ayrı-ayrı başlıqlarda qaldırılan problemlər ("H.Qayıbovun həyat və fəaliyyətinin tədqiq tarixi. 1920-ci ilə qədərki dövr", "1920-ci ildən 2020-ci ilə qədərki dövr", "H.Qayıbovun həyatı və ədəbi-ictimai mühiti. Qayıbov soyunun tarixindən", "Salahlı təhsil mühiti" , "Tiflis ədəbi mühitinin təsiri", "Tiflis müsəlman məktəbi", "Ailə mühiti", "M.F.Axundzadə ilə əməkdaşlığı", "Qori seminariyasının müəllimi", "Oxu və hesab dərslikləri", "Dini və maarifçilik fəaliyyəti", "H.Qayıbovun elmi fəaliyyəti və publisistikası. Elmi yaradıcılığı", "Publisistikası", "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" əsərinin filoloji özəllikləri" başlıqları altında verilən təhlillər bütün mahiyyəti ilə on doqquzuncu yüzillik səviyyəsində gedən ədəbi-mədəni proseslərin stixial məzmununu açıqlamaq məqsədi daşıyır. Bu başlıqlar bir istiqamətdə və əsas olan səviyyədə H.Ə.Qayıbov haqqında olanları əhatələmək məqsədi daşıyırsa, digər səviyyədə bütünlükdə görkəmli ictimai xadim, ədəbiyyatşünas maarifçinin mühit aspektində olanları ehtiva etmək məzmunu ilə nəzər-diqqəti cəlb edir.

Ədəbiyyatşünas alim bütün tərəfləri ilə on doqquzuncu yüzillik kontekstində baş verənlərin ümumi dinamik mənzərəsini son dərəcədə həssaslıqla izləmiş və prosesin ümumi gedişi axarında H.Ə.Qayıbovun əlaqələrini müasirləri və dövrün problemləri timsalında açmağa həssaslıq göstərmişdir. Onu da əlavə edək ki, on doqquzuncu yüzillik və onun problemləri müxtəlif aspektlərdə araşdırılma mövzusuna çevrilmiş və insafən də gərəkli tədqiqatların ortaya çıxması ilə diqqət önünə gəlir. M.M.Nəvvab, M.Müctəhidzadə, M.Tərbiyat, R.Əfəndiyev, S.Mümtaz, F.Köçərli, H.Araslı, S.Rüstəmov, F.Qasımzadə, Ə.Mirəhmədov, A.Dadaşzadə, K.Məmmədov, M.Məmmədov, X.Məmmədov, C.Qəhrəmanov, P.Əfəndiyev, M.Mustafayev və onlarla digərlərinin apardığı araşdırmalar bütünlükdə on doqquzuncu yüzilliyin polifonik axarına dayananların funksionallıq sistemini açmağa yönəlir. Y.Dadaşlı da öz araşdırması və fundamental tədqiqatı ilə bu sırada mühüm yer tutur, on doqquzuncu yüzillik səviyyəsində gedən prosesin yeni aspektdə konseptini təqdim edir. Təkrar etiraf edək ki, on doqquzuncu yüzilliyin ümumi mənzərəsi, spektral səciyyəsinin xarakteristikası ilə yanaşı, ayrı-ayrı şəxsiyyətlər, onilliklər baxımından səciyyələndirilməsi, eləcə də mühitlər kontekstində gərəkli araşdırmalar aparılmış və gərəkli təsəvvür formalaşdırılmışdır. Ancaq bu zənginləşmənin ortaqlıq nöqtələrinin təhlilə gətirilməsi və H.Ə.Qayıbov səviyyəsində formalaşdırdığı təsəvvürün təhlili ilk dəfə Y.Dadaşlı tərəfindən daha geniş aspektdə təhlilə gətirilmişdir. Zaqafqaziya Sünni Məzhəb Ruhani İdarəsinin sədri (Zaqafqaziya müftisi) olma ilə maarifçilik fəaliyyəti, qadın təhsili, yeni tipli məktəblər və s. baxımından gördüyü işlər, eləcə də ədəbiyyatşünas kimi əvəzsiz xidmətləri bir tarix və yaddaş olaraq örnəyə çevrilir.

M.F.Axundov, H.Ə.Qaibov, S.Ə.-Şirvani, A.Berje, M.Mahmudbəyov, M.Y.Qarabağí,M.M.Nəvvab, M.Müctəhidzadə, R.Əfəndiyev, F.Köçərli və s. kimi böyük ziyalıların apardığı mücadilə milli oyanışa, özünüdərkin təqdiminə köklənməyin ən bariz nümunəsi olaraq iyirminci yüzilliyə işıq tutur. "XİX əsrin ortalarından başlayaraq Azərbaycanın qabaqcıl ziyalıları maarif və mədəniyyətin inkişafına qayğı və diqqətlə yanaşmış, azərbaycanlıların təhsil alması üçün yeni məktəblərin yaradılmasına çalışmışlar. XIX əsr Azərbaycan məktəb tarixində "müsəlman məktəbləri" adı ilə tanınan bu təhsil ocaqlarının açılmasının ilk təşəbbüskarı görkəmli şair, maarif xadimi və ensiklopedik alim Abbasqulu ağa Bakıxanov olmuşdur". Tədqiqatçı Y.Dadaşlının əsrin ümumi dinamikası səviyyəsində təqdimə çalışdığı bu təsəvvür H.Ə.Qaibova gələn yolun xronotoplarını sərgiləmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

Dövrün ictimai-siyasi, ədəbi-mədəni, dini-ideoloji problemləri kontekstində diqqət önünə gələn yeniləşmə öz ahəngi ilə onu sabahlara daşıyacaq və milli kimlik müstəvisində nizamlayacaq şəxsiyyətlərin meydana gəlməsini bir zərurət olaraq qarşıya qoyurdu. Qalaqlanmış problemlərin həlli, siyasi mühitin imperiya təfəkküründə yeni açılımlara vəsilə olmaq və onun bağlantılarını yaratmaq amalı bu işıqlı mütəfəkkirlərin üzərinə bir vəzifə, özgürlük borcu olaraq düşürdü. Ümumiyyətlə, on səkkizinci yüzilliyin fərqli yönümlərə açılığı, etnik müəyyənliyin sərgilədiyi təsəvvür və M.V.Vidadi, M.P.Vaqif, Ağqız oğlu Piri, Ağaməsih Şirvani, Məhcur Şirvani, Şakir Şirvani və bu axarın Q.Zakir, M.Aşiq, C.Nəva, Ə.Nəbati timsalında sərgilədiyi mənzərə prosesin kəsb etdiyi yeni məzmun kontekstində oyanışları işarələməklə on doqquzuncu yüzilə gəlişin hazırlığını bir konsept olaraq içində cızırdı. A.Bakıxanovun, M.Ş.Vazehin, İ.Qutqaşınlının, M.F.Axundovun, S.Ə.Şirvaninin, H.Zərdabinin öz içində cızdığı məfkurə konsepsiyasının ana qaynağını məhz on səkkizinci yüzilliyin ümumi sferasında baş verənlər təşkil edirdi. Bütün bunlar on səkkizinci yüzillikdən on doqquzuncu yüzilliyə gələnlərin ümumi sistemini öz içində hazırlamaqla həm də sonrakı dönəmlərdə gedişin formulasını müəyyənləşdirdi. Bunun tarixi isə çox-çox qədimlərə, türkün cahanşümul dövlət məfkurəsinə, epos düşüncəsində qəlibləşən arxetiplərin hərəkətliliyinə və xronotop səviyyəsində dayanıqlılığına köklənir.

***(Davamı 16-cı səhifədə)***

KREDO

№ 02 (1258) 16 yanvar 2025-ci il

# HÜSEYN ƏFƏNDİ QAYIBOV: BÖYÜK MAARİFÇİ, ƏDƏBİYYATŞÜNAS VƏ İCTİMAİ XADİM

*(Əvvəli 3-cü səhifədə)*

H.Ə.Qayıbovun dünyaya göz açdığı mühit və ailə, genetik müəyyənlik bir özgürlük örnəyi olaraq xeyli əvvəllərə, etnik kimliyin kutsallığına və gələcəyə eyni əxlaq və davranış müstəvisində daşınışına dayanır. “Keçmiş Qazax qəzasının Salahlı kəndindən pərvəriş tapan Qayıbovlar Azərbaycan mədəniyyətinə onlarla məşhur ziyalılar - görkəmli maarifçilər, hərbiçilər, elm xadimləri, musiqişünaslar, şairlər vermişdir. Azərbaycanın ilk maarifpərvər qadınları da Qayıbovlar nəslinin yetirmələridir. Şaxələnmiş bir nəsildən - Qayıbovlar soyundan çoxlu sayda mədəniyyət xadimlərinin meydana çıxmasında ilk öncə Salahlı kənd məktəbinin, Tiflis ictimai-ədəbi mühitinin, Qori Müəllimlər Seminariyasının, Sovetlər birliyi dönəmində isə Bakı elmi-mədəni mühitinin əvəzsiz rolu xüsusilə vurğulanmalıdır”. Ədəbiyyatşünas alimin məsələləri bu kontekstdə təhlilə gətirməsi bir istiqamətdə tarixin daha əvvəlki dönəmləri haqqında izlənmənin gərəkliyini diqqət önünə gətirir. Mənbələri (arxiv materiallarını), ədəbiyyatları sistemli şəkildə izləyən Y.Dadaşlı bu araşdırması ilə elmi-nəzəri fikrin diqqətini həm də bu istiqamətə yönləndirməyi bacarmışdır.

Salahlı məktəb tarixi, eləcə də Qori müəllimlər seminariyası, Tiflis ədəbi mühiti və bütünlükdə böyük bir ziyalı nəslinin buraya axını ilə əlaqədar gərəkli araşdırmalar aparılmış və müxtəlif səviyyələrdə prosesin gedişi baxımından dəyərli işlər görülmüşdür. Y.Dadaşlının “Hüseyn Əfəndi Qayıbov: həyatı və fəaliyyəti” monoqrafiyası da həmin silsilədən olar araşdırmalar sırasına daxildir. On doqquzuncu yüzilliyin qaynar mədəniyyət platformasında Tiflis mühiti ayrıca bir zənginliklə özünü nümayiş etdirir və müxtəlif açılımlar üçün əsas rolunu oynayır. Bu mədəniyyət mərkəzinin ortaya qoyduğu təsəvvürdə M.Ş.Vazeh, M.F.Axundov, Səid və Cəlal Ünsizadə qardaşları, S.Vəlibəyov, A.O.Çernyayevski, M.Şahtaxtlı və s. kimi ziyalılarla yanaşı H.Ə.Qaibovun savab işləri elm, maarif, mədəniyyət, ədəbiyyat tarixinə əvəzsiz xidmətlərilə diqqət önünə gəlir. “Ziya”, “Ziyayi- Qafqaziyyə”, “Kəşkül”, “Şərqi Rus” və s. kimi qəzetlərin açdığı yol bütün parametrlərdə milli şüurun oyanışı və özünüdərk müstəvisində açar funksiyasını yerinə yetirmişdir. Tədqiqatçının geniş kontekstdə diqqət yetirdiyi bu proses H.Ə.Qayıbovun timsalında qadın təhsilindən, məktəb islahatından ideoloji xəttin (eləcə də müfti olma ilə) polifoniyasına qədər bir zənginliyi özündə ehtiva edir.




Monoqrafiyada görkəmli maarifçinin pedaqoji fəaliyyəti, qadın təhsili, dərslik problemi, yeni tipli məktəblərin açılması sahəsindəki yorulmaz xidmətləri, eləcə də dövrün qabaqcıl dünyagörüşlü ziyalıları ilə təmasları (məktublaşmaları), birgə fəaliyyət konsepsiyaları, M.F.Axundov, S.Ə.Şirvani, H.-Zərdabi, A.O.Çernyayevski və başqaları ilə əlaqələri haqqında verilən bilgilər, publisistikası, folklorşünaslıq fəaliyyəti və s. haqqında informasiyalar və təhlillər digər araşdırmalara vəsilə rolunu oynayır.

H.Ə.Qaibovun zəngin (ensiklopedik) fəalyyətində daha çox diqqət önünə gələn “Məcmuə” və “Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir” toplusudur. “Məcmuə”dən başlayan bu proses sonrakı dönəmdə sistemli fəaliyyətin nəticəsi olaraq dörd cildlik bir zəngin ədəbiyyat fondunun meydana gəlməsi üçün əsas olmuşdur. Əhdi Bağdadi, Sadiq bəy Əfşar, Sam Mirzə Saib Təbrizi, Lütfəli bəy Azər və digərlərinin təzkirəçilik ənənəsindən gələnləri sonrakı dönəmdə S.Ə.Şirvani, M.Müctəhidzadə, M.M.Nəvvab, M.Y.Qarabaği, A.Berje, H.Ə.Qayıbov uğurla davam etdirmişdir. Bu ənənənin yeni konsepti ədəbiyyatşünaslıq səviyyəsində Y.V.Çəmənzəminli, F.Köçərli, Ə.Abid, İ.Katib, Ə.Münzib və başqaları timsalında genişlənmələrə əsas oldu. Azərbaycan ədəbi-nəzəri fikri bugünkü uğurları, əldə etdiyi nailiyyətlərə görə həmin şəxsiyyətlərin gördüyü böyük işlərə borcludur. Y.Dadaşlı məşhur külliyyatla bağlı bir məqamı xüsusi olaraq vurğulayır və bu bütövlükdə ənənənin dönməzliyini və genişlənmələrə yol açdığını aydınlaşdırır. “Hüseyn Əfəndi Qayıbov M.V.Vidadinin bioqrafiyasını və əsərlərini topladığı üsulla M.P.Vaqifin də tərcümeyi-halına dair məlumatları və lirik əsərlərini ələ gətirmişdir. Vidadinin və Vaqifin yaxın qohumları, Qazaxın maarifpərvər ziyalıları vasitəsilə o yerin şairləri haqqında məxəzlərə əsaslanıb düzgün mülahizələr söyləmiş, onların ömür yolunun qaranlıq səhifələrini işıqlandırmışdır”. Bu qənaət bir istiqamətdə tarixi axarı əhatələyirsə, digər baxımdan on doqquzuncu yüzillik səviyyəsində olanların ümumi məzmununu sərgiləyir.

Kərbəlayi Səfi Valeh, Abdulla Canızadə, Q.Zakir, C.Nəva, Aşıq Qənbər, Aşıq Pəri, Məhəmməd bəy Aşiq, Ə.Nəbati, Ağa Məsih Şirvani, Məhcur Şirvani, Şakir Şirvani, Kazım ağa Salik, Mustafa ağa Arif, Əbdürrəhman ağa Şair, Şahnigar xanım Rəncur, Abbas ağa Nazir və onlarla başqa sənətkarların ədəbi irsi məhz bu mənbələr vasitəsilə günümüzə gəlib çatmışdır. H.Ə.Qayıbovun gördüyü gərəkli işlər sırasında diqqəti çəkən məsələlərdən biri “Əsli və Kərəm” dastanı ilə bağlıdır. “Məcmuə”də bu “Hekayəti-Kərəm” adı ilə özünə yer alır. Tədqiqatçı vurğulayır ki, “dastanın 1867-ci il iyunun 4-də yazıya alınıb qurtarması “Məcmuə”nin 382a vərəqində göstərilmişdir”. Burada diqqəti cəlb edən məsələlərdən biri “qədim nüsxə əsasında yazılması” məsələsidir. Digər bir məqam Harunərrəşid adının xatırlanmasıdır. Y.Dadaşlı bu təhlillərində çox doğru olaraq deyir: “Azərbaycan folklorunun və ədəbiyyatının zənginləşməsi və araşdırılmasında “Əsli və Kərəm” dastanının “Hekayəti-Kərəm” variantı qiymətli bir abidədir. Bütün bunlar Hüseyn əfəndi Qayıbovun zəngin ədəbi-mədəni, elmi-pedaqoji, ictimai-siyasi fəaliyyətinin möhtəşəmliyini və gələcəyə örnək olmasının göstəricisidir.